DOI: https://www.doi.org/10.36719/2663-4619/75/33-37

Sima Paşa qızı İsmayılova
Bakı Dövlət Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
simabdu@mail.ru

ÜZEYİR HACIBƏYLİ İRSİNİN BİBLİOQRAFİK TƏDQİQİ

Xülasə

Məqalədə sosial kommunikasiya vasitəsi olan biblioqrafik informasiyanın mövcudluq forması kimi şəxsi biblioqrafik vəsaitin ən bariz nümunəsi hesab edilən "Üzeyir Hacıbəyli" biblioqrafik göstərici haqqında ətraflı məlumat verilmişdir. Dahi bəstəkarın həyat və yaradıcılığının biblioqrafik tədqiqinə həsr olunmuş biblioqrafik göstəricidə bəstəkarın musiqi, bədii-publisistik əsərləri, kitabları, tədris vəsaitləri, məqalələri, çıxışları biblioqrafiyalaşdırma metodikasına əməl edilməklə sistemləşdirilmişdir. Üzeyir Hacıbəylinin bütün fəaliyyətini əks etdirən bu mükəmməl biblioqrafik vəsait Azərbaycan incəsənət elminin, musiqi və bəstəkarlıq sənətinin, o cümlədən Üzeyir Hacıbəyli yaradıcılığının tədqiqatçıları üçün zəngin informasiya mənbəyidir.

Açar sözlər: *incəsənət, bəstəkar, Üzeyir Hacıbəyli, biblioqrafik vəsait*

Sima Pasha Ismayilova

Bibliographic study of Uzeyir Hajibeyli's legacy

Summary

The article provides detailed information about the "Uzeyir Hajibeyli" bibliographic index, which is considered the most obvious example of personal bibliographic resources as a form of bibliographic information, which is a social communication tool. The bibliographic index dedicated to the bibliographic study of the life and work of the genius composer systematizes the composer's music, fiction, books, teaching aids, articles, speeches by following the methodology of bibliography. This excellent bibliographic resource, which reflects all the activities of Uzeyir Hajibeyli, is a rich source of information for researchers of Azerbaijani art, music and composition, as well as the works of Uzeyir Hajibeyli.

Key words: *art, composer, Uzeyir Hajibeyli, bibliographic resources*

Giriş

Azərbaycan musiqisinin klassiki Üzeyir Hacıbəyli haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Üzeyir Hacıbəyli Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi ən görkəmli şəxsiyyətlərdən biridir". (13.s.27)

Üzeyir Hacıbəyli musiqisi Azərbaycan xalqının canına, qanına sirayət edərək onun bədii mədəniyyətinin ayrılmaz hissəsinə çevrilmişdir. Necə ki, Üzeyir bəy xalq musiqimiz haqqında deyirdi ki, ona həmişə "ruh yüksəkliyi və aydınlıq ehtizazı, sabahkı qalibiyyətə möhkəm inam, mənəvi büllurluq, alicənablıq, sücaət və qəhrəmanlığı tərənnüm etmək xas olmuşdur", eləcə də Hacıbəylinin musiqisi üçün də bu cəhətlərlə bərabər, günəş kimi parlaqlıq, əlvanlıq xas olmuşdur. Bütün bu xüsusiyyətlər onun musiqisinin mahiyyətini təşkil etmişdir.

Ü.Hacıbəyli dahi bəctəkar, Azərbaycanın, eləcə də Şərq opera sənətinin banisi, "Leyli və Məcnun", "Koroğlu" kimi operaların müəllifi, böyük musiqişünas-görkəmli dramaturq, "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" operettalarının müəllifi, qiymətli məqalələrin müəllifi, Azərbaycan bəstəkarlar İttifaqının sədri, Elmlər Akademiyasının elmi-tədqiqat İnstitutunun rəhbəri, Akademiyanın musiqi üzrə ilk həqiqi üzvü, Azərbaycan Dövlət Konservatoriyasının təşkilatçısı, onun rektoru və professoru olmuşdur. Ü.Hacıbəyli eyni zamanda yorulmaz ictimai xadim, ilk musiqi məktəbinin, musiiqi texnikumunun yaradıcısı, Azərbaycan Dövlət himnlərinin müəllifi olmuş Azərbaycanın xalq artisti, Dövlət mükafatları laureatı olmuşdur.

Ü.Hacıbəylinin çoxşaxəli yaradıcılığını, zəngin ictimai və pedaqoji fəaliyyətini işıqlandıran sənəd kütləsiinin biblioqrafik təsvirini əks etdirən biblioqrafik mənbələr görkəmli bəstəkarın yaradıcılığının təqiq edilib araşdırılmasında zəngin informasiya potensialına malikdir.

Ü.Hacıbəylinin həyat və fəaliyyətinə həsr edilmiş ilk biblioqrafik vəsait 1941-ci ildə Respublika Kitab Palatası tərəfindən nəşr olunmuş "Üzeyir Hacıbəyov" göstəricisidir. Ü.Hacıbəyovun yaradıcılığı haqqında musiqişünas Q.Qasımovun yazmış olduğu "Giriş"lə başlanan bu biblioqrafik vəsait bəstəkarın yalnız 1941-ci ilə qədər olan yaradıcılığını əhatə edir. (10) Biblioqrafik vəsaitdə yalnız Ü.Hacıbəylinin əsərləri deyil, görkəmli bəstəkarın musiqi tariximizə dair qələmə aldığı əsərləri və onun haqqında yazılmış məqalələr verilmişdir.Bu biblioqrafik vəsait böyük bəstəkarın yaradıcılığını tam əhatə etmədiyindən AMEA-nın Mərkəzi Elmi Kitabxanası onun tamamlanmış və yenidən işlənmiş nəşrini 1978-ci ildə çapdan buraxmışdır. Bəstəkarın əsərlərini, onun haqqında elmi publisistik yazıları əhatə edən bu biblioqrafik vəsait 1638 adda materialı əhatə edir. (11) Biblioqrafik vəsaitə musiqişünas E.Abbasovanın yazdığı giriş məqaləsində Ü.Hacıbəylinin çoxşaxəli yaradıcılığı təhlil olunmuş, onun Azərbaycan musiqi sənətinin inkişafındakı rolu, əsas sənətkarlıq xüsusiyyətləri araşdırılmışdır.

Azərbayca musiqisinin klassiki, AMEA-nın akademiki, professor Üzeyir Əbdülhəsən oğlu Hacıbəyovun həyat və yaradıcılığını əks etdirən onun haqqında biblioqrafik informasiya verən biblioqrafik vəsaitlərdən biri Azərbaycan MEA Memarlıq və İncəsənət İnstitutu və Mərkəzi Elmi Kitabxana ilə birgə çapa hazırlanmış, 1985-ci ildə "Elm" nəşriyyatında çapdan çıxmış "Üzeyir Hacıbəyov: Biblioqrafiya" adlı biblioqrafik göstəricisidir. Bu elmi-köməkçi xarakterli biblioqrafik vəsait 1905-1985-ci ilin mart ayına qədər çap olunmuş materialları əhatə edir. 296 səhifədən ibarət olan biblioqrafik göstəricini M.Aslanov, Q.Qasımov və R.Əliyeva tərtib etmişlər. Biblioqrafik göstərici dörd bölmədən ibarətdir. Biblioqrafik göstəricinin "Sənətkarın həyatı və yaradıcılığının əsas tarixləri", "Üzeyir Hacıbəyovun yaradıcılıq yolu","Musiqi əsərləri","Kitabları, məqalələri, çıxışları və hekayələri", "Üzeyir Hacıbəyov haqqında ədəbiyyat" bölmələri vardır. Biblioqrafik göstəricinin "Sənətkarın həyat və yaradıcılığının əsas tarixləri" adlanan bölməsində bəstəkarın anadan olmasından vəfatına qədər həyatının əsas tarixləri Azərbaycan və rus dillərində xronoloji ardıcıllıqla qələmə alınmışdır. Bu hissə vasitəsilə bəstəkarın həyatında baş vermiş mühüm hadisələr haqqında məlumat əldə etmək olar və bu hissə onun mənalı həyatının güzgüsüdür. (12)

"Üzeyir Hacıbəyovun yaradıcılıq yolu" adlanan ikinci bölmədə sənətşünaslıq doktoru, professor E.Abbasovanın bəstəkarın çoxcəhətli yaradıcılığını əks etdirən "Oçerk" həm Azərbaycan, həm də rus dilində verilmişdir. Oçerk bəstəkarın yaradıcılığını izləmək baxımından olduqca zəngin informasiya potensialına malikdir. Ü.Hacıbəyovun öz sözləri ilə desək: "Elə adamlar var ki, onlar təkcə özləri üçün deyil, bütün xalqın və ya hətta bütün bəşəriyyətin rifahı üçün dünyaya gəlmişlər". (12) Bu sözlərdə görkəmli Azərbaycan sənətkarının musiqisinin böyük, tarixən qiymətli yaradıcılıq yolunun mənasını müəyyən etmək olar.

Biblioqrafik göstəricinin üçüncü bölməsi "Musiqi əsərləri" adlanır. Bu bölmə də bir neçə yarımbölməyə bölünür. Onlardan birincisi "Operalar" yarımbölməsidir. Bu bölmədə bəstəkarın 1907-ci ildə yazdığı ilk opera olan Leyli və Məcnun-dan başlayaraq Şeyx Sənan, Rüstəm və Zöhrab, Şah Abbas və Xurşudbanu, Əsli və Kərəm, Harun və Leyla, Firuzə kimi operalarının nəşr tarixi işıqlandırılır. İkinci yarımbölmə "Musiqili komediyalar" adlanır. Bu bölmə daxilində görkəmli bəstəkarın 1910-cu ildə çap olunmuş ilk musiqili komediyası olan "Ər və arvad" əsərindən başlayaraq, daha sonralar yazdığı "O olmasın, bu olsun" (1911), "Arşın mal alan" (1913) kimi musiqili komediyalarının tarixi işıqlandırılır.

Bu yarımbölmələrin mühüm əhəmiyyəti ondadır ki, operaların primyera tarixləri, müxtəlif illərdə operalarda çıxış edən aktyorlar haqqında mükəmməl biblioqrafik informasiya verir. Bu bölmənin mühüm yarımbölmələrindən biri "İnstrumental müşaiyətli xor" əsərləri adlanır. Bu bölmədə sahə üzrə 13 mənbənin biblioqrafik təsviri verilmişdir. "Orkestr əsərləri" adlanan digər yarımbölmədə orkestr üçün yazılmış 6 əsərin biblioqrafik təsviri xronoloji ardıcılıqla verilmişdir. "Kamera-instrumental əsərləri" adlanan digər yarımbölmədə skripka, violençel və fortopiano üçün yazılmış 5 əsərin biblioqrafik təsviri verilmişdir."Xoreqrafik miniatürlər, Mahnılar, Xalq melodiya-

larının yazısı və işlənməsi" kimi yarımbölmələrdə də sahə üzrə 17 mənbənin biblioqrafik təsviri verilmişdir.(13)

Ü.Hacıbəyovun İrşad, Tərəqqi, Həqiqət, İqbal, Yeni İqbal qəzetlərində dərc olunmuş publisistik məqalə, hekayə, felyeton və miniatürlər adlanan digər yarımbölmədə 1905-ci ildən başlayaraq dövrü mətbuatda çap olunmuş 476 əsəri haqqında mükəmməl biblioqrafik informasiya verilir. "Kitabları, məqalələri, çıxışları və hekayələri" adlanan digər yarımbölmə 1907-ci ildən 1980-ci ilə qədər çap olunmuş 130 mənbə haqqında biblioqrafik informasiya verilir. Digər yarımbölmə isə "Redaktə və məsləhət" adlanır. Buraya Ü.Hacıbəyovun redaktə etdiyi, məsləhət verdiyi musiqi əsərləri daxil edilmişdir. Bu bölmədə 11 mənbə haqqında biblioqrafik informasiya almaq mümkündür. Eyni zamanda Azərbaycan və xarici dillərdə nəşr edilən əsərlərin də adlarının rus dilinə tərcüməsi verilmişdir.

Biblioqrafik göstəricinin bölmələrindən biri isə "Üzeyir Hacıbəyov haqqında ədəbiyyat" adlanır. Bu bölmədə görkəmli bəstəkar haqqında yazılmış 1447 adda Azərbaycan və rus dilində olan mənbənin biblioqrafik təsviri xronoloji ardıcıllıqla verilmişdir. Azərbaycan dilində olan mənbələr rusca, rusca olan mənbələr isə Azərbaycan dilinə tərcümə olunmuşdur. Biblioqrafik vəsaitdə biblioqrafik təsvirlərin hər iki dildə verilməsi onun istifadəçi dairəsini daha da genişləndirmişdir. Biblioqrafik vəsaitdən istifadəni asanlaşdırmaq və vaxt itkisinin qarşısını almaq məqsədilə vəsaitə bir neçə köməkçi aparat tərtib olunmuşdur. Onlardan "Musiqi əsərlərinin əlifba göstəricisi", "Kitab, məqalə və çıxışlarının əlifba göstəricisi", "Müəllifin əlifba göstəricisi" adlı Azərbaycan və rus dilində tərtib olunmuş köməkçi aparatın çox böyük təcrübi əhəmiyyəti vardır. "Üzeyir Hacıbəyov" adlı bilioqrafik vəsait incəsənət üzrə sahə mütəxəssisləri üçün zəngin informasiya bazasıdır və onların biblioqrafik informasiya təminatında mühüm rol oynayır. Azərbaycan musiqisinin klassiki, Xalq artisti, Dövlət mükafatları laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki, professor Üzeyir Əbdülhəsən oğlu Hacıbəylinin həyat və yaradıcılığına həsr edilmiş digər biblioqrafik vəsait M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən 2009-cu ildə "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasında çapdan çıxmışdır. Ü.Hacıbəylinin həyat və fəaliyyətinə həsr edilmiş biblioqrafik vəsait 1985-ci ildə AMEA-nın Mərkəzi Elmi Kitabxanası tərəfindən hazırlanmış vəsaitin yenidən işlənmiş və artırılmış nəşri olub, 1905-ci ildən 2008-ci ilədək olan dövrü əhatə edir. (13) Şəxsi biblioqrafik göstərici dörd bölmədən ibarətdir. Bölmələrə bəstəkarın həyat və yaradıcılığının əsas tarixləri, yaradıcılıq yolunun ümumi xarakteristikasına həsr olunmuş oçerk, bəstəkarın musiqi əsərləri, kitabları və ayrı-ayrı məcmuələrdə, jurnallarda, qəzetlərdə dərc edilmiş məqalələri, habelə Üzeyir Hacıbəyli haqqında ədəbiyyat daxil edilmişdir.

Üzeyir Hacıbəyli irsinə dərindən bələd olan sənətşünaslıq doktoru, professor, Azərbaycanın Əməkdar İncəsənət xadimi, Əməkdar Elm xadimi, AMEA-nın müxbir üzvü Zemfira Səfərova dahi bəstəkarın yaradıcılığını, əsərlərinin yaranma və nəşri tarixini dərindən təhlil edərək, mərhələ-mərhələ, faktlara əsaslanaraq şərhini vermişdir. Zemfira Səfərova dərin məzmunlu "Ölməzlik" adlı yazısında qeyd etmişdir... Bəşəriyyət tarixində elə sənətkarlar və şəxsiyyətlər var ki, "....onlar özləri üçün anadan olmayıblar,bəlkə bütün xalqa və hətta ümum insaniyyətə xeyir gətirmək və tərəqqisinə səbəb olmaq üçün yaranıçlar. Bu cürə adamlar nəinki sağlığında, ... öləndən sonra da camaata mənfəət veriblər" (2) /Ü.Hacıbəyli, 1910. Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəylinin dediyi bu sözləri ilk növbədə bəstəkarın özünə aid etmək olar.

...Azərbaycanda türk əhalisi arasında musiqi təhsilini yaymaq istərkən: Bax, Motsart, Bethoven kimi musiqi dahilərinin əəsərlərini ondan gizlətsək, biz məqsədə nail olmarıq" (3) /Ü.Hacıbəyli, 1965,s.200.

XX əsrin əvvəllərində yaradıcılığı başlayan Üzeyir Hacıbəyli həyatını isə həmin əsrin ortalarında tamamlamışdır. Sənətdə, musiqi mədəniyyətində millilik və beynəlmiləlçilik anlayışını Ü.Hacıbəyli daha qlobal, Qərb və Şərqin, dünya və milli mədəniyyətlərinin nailiyyətlərinin üzvi sintezi kimi başa düşürdü. Azərbaycan musiqisinin gələcək yolu da məhz Ü.Hacıbəylinin irəli sürdüyü, əsasını qoyduğu yol oldu. Bu gün Azərbaycan musiqisinin beynəlmiləl əhəmiyyət kəsb etməsində Ü.Hacıbəyli yaradıcılığının və şəxsiyyətinin böyük rolu vardır.

Biblioqrafik göstəriciyə ilk dəfə olaraq dahi sənətkarın xarici dillərdə nəşr olunmuş əsərləri və onun həyat və yaradıcılıq yolunu işıqlandıran ədəbiyyat əks etdirilmişdir.

Üzeyir Hacıbəyli kimi dahi şəxsiyyətin bütün yaradıcılığını və bəstəkar haqqında yazılan materialların 100 ildən artıq nəşr tarixini əhatə edən bu biblioqrafik göstəriciyə Ü.Hacıbəylinin əsərlərinin sərlövhə göstəricisi və onun haqqında yazan müəlliflərin adlar göstəricisi daxildir.

Biblioqrafik göstəriciyə sənətşünaslıq doktoru, professor, Azərbaycanın Əməkdar İncəsənət xadimi, Əməkdar Elm xadimi, AMEA-nın müxbir üzvü Zemfira Səfərova "Ölməzlik" adlı geniş, əhatəli ön söz yazmışdır.

Zemfira Səfərova Ü.Hacıbəyli yaradıcılığını, əsərlərinin yaranma və nəşr tarixini, bəstəkarın zəngin fəaliyyətini təhlil edərək qeyd etmişdir ki, XX əsrin xalqımıza bəxş etdiyi ən böyük şəxsiyyətlərdən, ən böyük simalardan biri Üzeyir Hacıbəylidir. Ona Şərq və Qərb musiqi mədəniyyətləri arasında keçilməz səddi aradan götürmək, Azərbaycan musiqisinin gələcək inkişaf yolunu və estetik prinsiplərini müəyyənləşdirmək nəsib olmuşdur. Yer kürəsinin milyonlarla insanları Hacıbəyli musiqisinə qulaq asaraq, bütün kökləri ilə öz xalqının folkloru ilə bağlı olan və dünya musiqi mədəniyyətinin nailiyyətlərini mənimsəyən sənətkarın`yaradıcılığına bələd olurlar. Bu yaradıcılıqda Şərqin və Qərbin musiqi ənənələrinin vəhdəti parlaq bədii obrazlarla əks olunmuş, yüksək humanizm idealları, xeyirxahlıq, xalqlar dostluğu tərənnüm edilmişdir.

Üzeyir Hacıbəyli dahi bəstəkar, Azərbaycanın, eləcə də Şərq opera sənətinin banisi, "Leyla və Məcnun", "Koroğlu" kimi təkrarsız operaların müəllifi, böyük musiqişünas-alim, "Azərbaycan xalq musiqisinin əsasları" adlı elmi-nəzəri risalənin müəllifi, görkəmli dramaturq, "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" operettalarının müəllifi, alovlu publisist, gözəl pedaqoq, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, EA-nın elmi-tədqiqat İncəsənət İnstitutunun rəhbəri, Akademiyanın musiqi üzrə ilk həqiqi üzvü, yorulmaz ictimai xadim, Azərbaycan Dövlət Konservatoriyasının təşkilatçısı, onun rektoru və professoru, ilk çoxsəsli xorun, ilk notlu xalq çalğı alətləri orkestrinin, musiqi məktəbinin, musiqi texnikumunun yaradıcısı olmuşdur. (1) Üzeyir Hacıbəyli Azərbaycan Dövlət Himnlərinin müəllifi olmuşdur.

Təsadüfi deyil ki, 2008-ci ildə 100 yaşlı "Leyli və Məcnun"nun yubileyi YUNESKO xətti ilə bütün dünyada bayram edilmişdir.

Şəxsi biblioqrafik göstəricidən istifadəni asanlaşdırmaq və vaxt itkisinə qənaət etmək məqsədilə 4 adda köməkçi aparat:

1.Ü.Hacıbəylinin əsərlərinin əlifba göstəricisi;

2.Ü.Hacıbəylinin məqalələrinin əlifba göstəricisi;

3.Ü.Hacıbəylinin əsərlərinin əlifba göstəricisi;

4.Müəlliflərin əlifba göstəricisi - tərtib edilmişdir ki, bu da vəsaitin informasiya potensialının artmasına səbəb olmuşdur.

Biblioqrafik göstəricidən məlum olur ki, Üzeyir Hacıbəylinin ilk musiqi əsəri "Leyli və Məcnun" operası (1907) olmuşdur. Son əsəri Firuzənin (eyni adlı bitməmiş operasında) ariyası olmuşdur. Dahi bəstəkarın anadan olduğu gün - 18 sentyabr hər il ulu öndər Heydər Əliyevin sərəncamı ilə Musiqi günü kimi, Azərbaycan Musiqisinin bayramı kimi qeyd edilir.

Nəticə

Müasir İncəsənət elminin inkişaf edib zənginləşməsində, yeni-yeni sahələrinin yaranıb formalaşmasında incəsənət sahəsinin çoxsaylı nümayəndələrinin, tədqiqatçılarının, xüsusilə, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun elmi əməkdaşlarının, görkəmli incəsənət xadimlərinin rolu böyük olmuşdur.

İncəsənət sahəsinin görkəmli nümayəndələrinin elmi uğurlarının qazanılmasında ilkin mənbələrlə yanaşı, biblioqrafik mənbələr də mühüm rol oynamış və bu gün də oynamaqdadır. İncəsənət elminin görkəmli nümayəndələrinin elmi tədqiqat fəaliyyətində ümumi xarakterli retrospektiv və cari biblioqrafik informasiya mənbələri ilə yanaşı şəxsi biblioqrafik göstəricilər də böyük rol oynayır. Şəxsi biblioqrafik göstəricilərin köməyi ilə haqqında bəhs olunan şəxsin qələmindən çıxan bütün əsərləri, bəstəkarı və ya drijoru olduğu musiqi əsərlərinin, sənətşünaslıq əsərlərinin biblioqrafik təsvirini əks etdirən biblioqrafik vəsaitlər incəsənət sahəsinin informasiya təminatında mühüm rol oynayır.

Üzeyir Hacıbəyli yaradıcılığına həsr edilmiş biblioqrafik vəsaitlərdə görkəmli bəstəkarın tərcümeyi-halı, elmi, ictimai fəaliyyəti, əsərləri, kitabları, məqalələri, tədris vəsaitləri, çıxışları, redaktə etdiyi əsərlər, haqqında olan ədəbiyyat, əsərlərinin xaricdə nəşrləri haqqında ətraflı məlumat verilmişdir.

Azərbaycanın zəngin biblioqrafik informasiya resursları içərisində incəsənət elminə dair biblioqrafik mənbələr də mövcuddur. Bu biblioqrafik informasiya mənbələri respublikamız yenidən öz müstəqilliyini əldə etdikdən sonra bu sahədə dinamik inkişaf diqqəti cəlb edir. Xüsusilə, bu sahədə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının və AMEA-nın Mərkəzi Elmi Kitabxanasının biblioqrafik fəaliyyəti təqdirə layiqdir.

Müasir dövrün reallıqlarını nəzərə alaraq informasiya texnologiyalarına əsaslanmaqla incəsənət sahəsində müvafiq elektron məlumat bazalarının yaradılması mühüm vəzifələrdəndir. Hal-hazırda bu sahədə müəyyən işlər görülsə də, ümid edirik ki, yaxın illərdə bu iş bütünlükdə öz həllini tapacaqdır. Üzeyir Hacıbəylinin həyat və fəaliyyətinə həsr edilmiş biblioqrafik vəsaitlər respublikamızda incəsənət sahəsinin mütəxəssisləri üçün zəngin informasiya mənbəyi olmaqla, mütəxəssislərin biblioqrafik informasiya təminatında mühüm rol oynayır.

Ədəbiyyat

1. Ağayeva X. Üzeyir Hacıbəyov.- B.,1955.-68s.
2. Ü.Hacıbəyli. "Həqiqət" qəzeti, 1910, 14 aprel, №82.
3. Hacıbəyov Üzeyir.Vəzifeyi-musiqiyyəmizəaid məsələlər. /Əsərləri,IIc.,B.,1965.- s.200.
4. Hacıbəyov Ü.İlk Azərbaycan xoru./Əsərləri, IIc.s.271.
5. Hacıbəyov Ü."leyli Məcnun"dan "koroğlu"ya qədər, /Əsərləri, IIc.B.,1965, s.274.
6. Hacıbəyov Üzeyir. Azərbaycan xalq musiqisinin əsasları.-B.,1950,s.10.
7. Kasumov K. "Узуир Гаджибеков".B.,1945,c.70.
8. Əmirov Fikrət . Üzeyir məktəbi /musiqi səhifələri, B.,1978,s.79.
9. Qarayev Qara. Ü.Hacıbəylinin ölümü münasibətilə çıxışı Uçenıye zapiski AQK, im. UşQadjibekova, 1965, №1.
10. Ü.Hacıbəyov: Biblioqrafik məlumat /Tərt.ed.: Qubad; Azərbaycan Dövlət Kitab Palatası. -B., 1941. -68s.
11. ÜzeyirHacıbəyov:Biblioqrafiya/Tərt.ed.: M.Aslanov, R.Quliyeva, Q.Qasımov, Ş.Kəromova; Azərb. EA MEK.-B.:Elm,1978.-211s.
12. Üzeyir Hacıbəyov: Biblioqrafiya, II nəşri / Azərb.EA MEK.-B.:Elm,1985.-286s.
13. Üzeyir Hacıbəyli: Biblioqrafiya / M.F.Axundov adına Azərbaycan Milli Kitabxana. -B., 2009.-380s.

Göndərilib: 06.01.2022 Qəbul edilib: 02.02.2022